Respublika.- 2020.- 26 yanvar.- S.7.



*Bələdiyyə həyatı*

# Oğuz: Böyük Söyüdlü bələdiyyəsində sosial-iqtisadi inkişaf ön plandadır

Oğuzun rayon mərkəzindən xeyli uzaqda ünvanlanan, bir-birindən yaxın ərazilərdə, eyni adət-ənənəyə xas olan üç kəndi var. **Böyük Söyüdlü, Qarabulaq, Astraxanovka.** Üçünün də adamlarının əsas məşğuliyyəti kənd təsərrüfatı, əsasən də taxılçılıq və heyvandarlıqdır. Hər üçündə azsaylı xalqların nümayəndələri mehriban, səmimi dostluq şəraitində yaşayırlar. Qeyd edək ki, ötən ilə kimi bu kəndlərin adamlarının rayon mərkəzinə gediş-gəlişi yolların bərbadlığı üzündən çox çətin idi. Hətta deyilənlərə görə, bəzi sakinlər bu səbəbdən öz yaşayış yerlərindən rayon mərkəzinə, digər yerlərə gedirdilər. Ötən ildən bu problem dövlətin yaxından dəstəyi sayəsində aradan qaldırılıb. Padar kəndinin yaxınlığından keçən magistraldan düz Astraxanovkaya, hətta ondan bir qədər aralıda olan Çaldaş kəndinə kimi keyfiyyətli asfalt yol çəkilib, Böyük Söyüdlüdən Qarabulağa kimi olan yolun asfaltlanması isə yaxın vaxtlarda başa çatdırılacaq. Bəli, abadlıq, firavanlıq, torpağa qayıdış da elə bu yolun çəkilişindən sonra yeni vüsət alıb.

Bəli, ölkəmizin dilbər guşələrindən olan Oğuzun Böyük Söyüdlü bələdiyyəsinin əhatəsindəki kəndlər də sosial-iqtisadi inkişaf, quruculuq, tərəqqi yolundadır. Adamların sosial həyat tərzi daha da yaxşılaşır, istək və arzuları uğurla həyata keçirilir, qarşıya çıxan problemlər öz həllini tapır. Bu xoş soraqlarla biz də yaxın günlərdə yolumuzu sözügedən ünvandan saldıq. **Bələdiyyə sədri Məhəmməd Yolçuyevlə** söhbət zamanı öyrəndik ki, üç min nəfərə yaxın əhalinin yaşadığı Böyük Söyüdlü, Qarabulaq, Astraxanovka kəndlərində 570 təsərrüfat mövcuddur. Bələdiyyənin 132,85 hektar ehtiyat, 68,60 hektar perspektiv torpaq fondu var.

Ərazidə yaşayan vətəndaşların sosial məsələlərinin həllinə, o cümlədən kəndarası yolların bir sıra sosial yönümlü binaların təmiri, əhalinin içməli su, fasiləsiz elektrik enerjisi ilə, lazımi səviyyədə təminatı istiqamətində nə kimi işlər görüldüyünü soruşanda bələdiyyə sədri Məhəmməd Yolçuyev belə dedi:

—Gəzib görsəniz, elin ürək sözlərini dinləsəniz, suallarınıza cavab taparsınız.

Lap keçmişindən tanıdığım müəllim **Məhəmməd Rəhimovu** arayıb axtardım, həmsöhbət oldum. Dediklərinin bəzilərini oxucularla da bölüşmək yerinə düşər:

—Uzun illər Böyük Söyüdlü kəndində yaşayıram. Hələ keçmişdən burada etibarlı bünövrəsi qoyulan dostluq, qardaşlıq bu gün də davam edir. İndi təqaüddəyəm. Amma müstəqillik illərinin inkişafı, tərəqqisi məni daha çox sevindirir. Böyük Söyüdlüdə yeni yaraşıqlı məktəb binası tikilib. Buradakı həkim ambulatoriyasında vətəndaşlara yaxşı səhiyyə xidməti göstərilir. Kənddə prospektə oxşayan böyük bir küçə salınıb, vaxtı ilə xeyli uzaqlardan buraya çəkilən su kəməri yenilənmiş və kəndin içməli su problemi həllini tapmışdır. 1941-1945-ci illər Böyük Vətən müharibəsində həlak olanların şərəfinə yaradılan abidə yenidən bərpa olunub. Kənddə azsaylı xalqların nümayəndələri ilə yanaşı, 50-yə yaxın qaçqın və məcburi köçkün ailələri də yaşayır.

Böyük Söyüdlüdən bir neçə kilometr aralıda yerləşən Qarabulağın ürəkləri oxşayan mənzərəsi var. Qoyunquzu, mal-qara oylağı olan yamacları, qışının sərtliyi, yayının istisi, yazının yağışı, payızının xəzan örtüklü nəfəsi ilə seçilən Qarabulağa hansı fasilədə üz tutsan ləzzət alarsan. Kəndin səviyyəsindən xeyli aşağıdan axan Türyançay ram olunur. Onun suyu ayrı-ayrı şirkətlər, sahibkarlar tərəfindən Qarabulağın, eləcə də digər qonşu kəndlərin ərazilərində salınan böyük meyvə bağlarına veriləcək.

Bu kəndin ağsaqqallarından bəzilərini hələ sovetlər birliyi vaxtından tanıyırdım. Onlardan biri **Mirsahib Rəhimov** sovetlər birliyi vaxtında buradakı "Sovet Dağıstanı" kolxozuna rəhbərlik də edib. Dedi ki, Qarabulaqda 400 metr uzunluğunda yeni yol da salınıb. O, qarabulaqlıların ən gözəl hədiyyəsinin burada son illərdə inşa olunan yaraşıqlı məktəb binası olduğunu və bu təhsil ocağına Sədrəddin Qarayev kimi təcrübəli pedaqoqun rəhbərlik etdiyini də vurğuladı.

Nəhayət, yolumuzu lap ucqarda olan Astraxanovka kəndindən saldıq. Qeyd edim ki, asfalt yolun bura kimi gəlməsi, hətta ondan bir qədər aralıdakı kiçik yaşayış məntəqəsi olan Çaldaşa kimi uzanıb getməsi tikinti quruculuğa, abadlığa bir sıra digər sosial problemin həllinə də təkan verir. Bu kəndə də yeni içməli su xətti çəkilib. Ərazidə salınan yeni meyvə bağları, sahələrdə inşasına başlanan bəzi sənaye yönümlü obyektlər Astraxanovkada işsizlik probleminin həllində, əhalinin maddi rifah halının yaxşılaşmasında mühüm rol oynayır.







Yuxarıda qeyd etdiklərimizin, demək olar hamısının icra olunmasında, əlbəttə dövlətin yüksək diqqət və qayğısının böyük rolu var. Bunu kəndlərin sakinləri də böyük razılıqla deyirlər.

—Bütün bunlar isə bələdiyyənin fəaliyyətinin tənzimlənməsinə böyük dəstək olur - deyən bələdiyyə sədri Məhəmməd Yolçuyev özünüidarəetmə qurumunda qarşıya qoyulan vəzifələrin icrasına yüksək məsuliyyətlə yanaşıldığını bildirdi. Dedi ki, hər üç kənddəki məktəblərin qayğıları ilə yaşamağı, onların həllinə dəstək olmağı, mədəni maarif, səhiyyə, ticarət obyektlərində lazımi xidmətin təşkili, veteranların, əlillərin, tənha və kimsəsizlərin səsinə səs verilməsi, şəhid ailələrinin tələb və ehtiyaclarına həssaslıqla yanaşılması da bələdiyyənin fəaliyyətinin həmişə ana xətti olmuşdur. 2014-2019-cu illərdə bələdiyyə tərəfindən ehtiyacı olanlara 5400 manatdan çox yardım olunmuşdur. Üç kənddə birlikdə 59 nəfərə ev tikməsi üçün həyətyanı torpaq sahəsi verilmişdir. Qeyd olunan illərdə bələdiyyə tərəfindən vergilərin yığılması məsələsi diqqət mərkəzində olmuşdur. Bütün bunlar və qeyd etmədiyimiz digər ürəkaçan işlər ötən ilin sonunda keçirilən bələdiyyə seçkilərinin sözügedən ünvanda da yüksək mütəşəkkilliklə keçirilməsinə, ümumi işin xeyrinə istiqamətlənən işgüzarlığa, qayğıkeşliyə, təşəbbüs və təşkilatçılığa səs verilməsinə səbəb olmuşdur.

**Rasim AMANOV,**
**"Respublika".**